| | |
|---|---|
| AKTIN NÖVÜ | AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARLARI |
| QƏBUL EDİLDİYİ TARİX | 12.05.2014 |
| QEYDİYYAT NÖMRƏSİ | 142 |
| ADI | “Məhsul nümunələrinin götürülməsi ilə bağlı yoxlayıcı orqanın çəkdiyi xərclərin sahibkar tərəfindən əvəzinin ödənilməsi Qaydaları və müddətləri”nin təsdiq edilməsi haqqında |
| RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ | Azərbaycan Qəzeti (Dərc olunma tarixi: 25-05-2014, Nəşr nömrəsi: 109), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 31-05-2014, Nəşr nömrəsi: 05, Maddə nömrəsi: 569) |
| QÜVVƏYƏ MİNMƏ TARİXİ | 25.05.2014 |
| AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU | 110.010.000 |
| HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ | 14201405120142 |
| HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX | 26.05.2014 |

**“Məhsul nümunələrinin götürülməsi ilə bağlı yoxlayıcı orqanın çəkdiyi xərclərin sahibkar tərəfindən əvəzinin ödənilməsi Qaydaları və müddətləri”nin təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

“Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikasının 2013-cü il 2 iyul tarixli 714-IVQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 28 avqust tarixli 955 nömrəli Fərmanının 1.1.12-ci yarımbəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Məhsul nümunələrinin götürülməsi ilə bağlı yoxlayıcı orqanın çəkdiyi xərclərin sahibkar tərəfindən əvəzinin ödənilməsi Qaydaları və müddətləri” təsdiq edilsin (əlavə olunur).

**Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə**

Bakı şəhəri, 12 may 2014-cü il
142

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2014-cü il 12 may tarixli 142 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**Məhsul nümunələrinin götürülməsi ilə bağlı yoxlayıcı orqanın çəkdiyi xərclərin sahibkar tərəfindən əvəzinin ödənilməsi Qaydaları və müddətləri**

**1. Ümumi müddəalar**

1.1. Məhsul nümunələrinin götürülməsi ilə bağlı yoxlayıcı orqanın çəkdiyi xərclərin sahibkar tərəfindən əvəzinin ödənilməsi Qaydaları və müddətləri (bundan sonra – Qaydalar) “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikasının 2013-cü il 2 iyul tarixli 714-IVQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 28 avqust tarixli 955 nömrəli Fərmanının 1.1.12-ci yarımbəndinin icrasını təmin etmək məqsədi ilə hazırlanmışdır və sahibkarlıq sahəsində aparılan yoxlamalar zamanı məhsul nümunələrinin götürülməsi ilə bağlı yoxlayıcı orqanın çəkdiyi xərclərin əvəzinin sahibkar tərəfindən ödənilməsi qaydalarını və müddətlərini müəyyən edir.

1.2. Sahibkarlıq sahəsində aparılan yoxlamalar zamanı məhsul nümunələrinin götürülməsi ilə bağlı yoxlayıcı orqanın çəkdiyi xərclərin əvəzinin sahibkar tərəfindən ödənilməsi (bundan sonra –xərclərin əvəzinin ödənilməsi) “İnzibati icraat haqqında” Azərbaycan Respublikasının Qanununa, “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununa və bu Qaydalara əsasən həyata keçirilir.

**2. Xərclərin əvəzinin ödənilməsi**

2.1. Yoxlama zamanı götürülən məhsul nümunələrinin dəyərinin ödənilməsi, onların saxlanılması, tədqiq (sınaq) edilən parametrlərinin dəyişilməz saxlanılması, daşınması, tədqiqinin (sınağının) aparılması, alınmış nəticələr barədə məlumat verilməsi, məhsulun daha sonrakı satışı və ya utilizasiyası ilə əlaqədar yaranan xərclər, həmçinin məhsulun tədqiqi (sınağı) barədə yoxlayıcı orqanın qərarının nəticəsi olaraq yaranan bütün digər xərclər yoxlayıcı orqanın hesabına ödənilir.

2.2. Əgər məhsul nümunələrinin tədqiqinin (sınağının) nəticələri məhsulun müəyyən edilmiş tələblərə uyğun olmadığını və bu uyğunsuzluğun insan həyatına və ya sağlamlığına, ətraf mühitə və dövlətin əmlak maraqlarına birbaşa və mühüm təhlükə yaratdığını və ya mühüm zərər vurduğunu müəyyən edərsə, yoxlayıcı orqanın bu Qaydaların 2.1-ci bəndinə uyğun olaraq çəkdiyi xərclərin əvəzi sahibkar tərəfindən aşağıdakı hallar istisna olunmaqla ödənilməlidir:

2.2.1. xərclərin yoxlayıcı orqan tərəfindən faktiki olaraq çəkilmədiyi;

2.2.2. xərclərin çəkilməsi barədə sənədli təsdiqləmənin olmadığı;

2.2.3. xərclərin yoxlayıcı orqan tərəfindən məhsul nümunələrinin qanunsuz götürülməsi, o cümlədən “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydalara əməl edilmədən götürülməsi ilə əlaqədar çəkildiyi hallar.[1]

2.3. Yoxlayıcı orqan götürülmüş məhsul nümunələrinin tədqiqinin (sınağının) nəticələri barədə protokolu aldıqdan sonra bu Qaydaların 2.2-ci bəndində nəzərdə tutulmuş halda xərclərin əvəzinin ödənilməsi haqqında 5 (beş) iş günü müddətində qərar qəbul edir. Qərar yoxlayıcı orqanın rəhbəri və ya onun həvalə etdiyi vəzifəli şəxs tərəfindən imzalanaraq, bu Qaydaların 2.1-ci bəndində göstərilən xərclərin çəkilməsi barədə müvafiq sənədlərin surətləri ilə birlikdə 3 (üç) iş günü müddətində sahibkara təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir.[2]

2.4. Xərclərin əvəzinin ödənilməsi haqqında qərarda aşağıdakılar göstərilir:

2.4.1. qərarın nömrəsi və tarixi;

2.4.2. yoxlayıcı orqanın adı;

2.4.3. xərclərin əvəzini ödəməli olan sahibkarın adı və vergi ödəyicisinin eyniləşdirmə nömrəsi;

2.4.4. bu Qaydaların 2.1-ci bəndinə uyğun olaraq, yoxlayıcı orqanın çəkdiyi xərclərlə bağlı sahibkar tərəfindən ödənilməli olan məbləğ;

2.4.5. xərclərin əvəzinin ödənilməsi üçün nəzərdə tutulan hesabın rekvizitləri;

2.4.6. yoxlayıcı orqanın rəhbərinin və ya onun həvalə etdiyi vəzifəli şəxsin adı, soyadı, vəzifəsi və imzası.

2.5. Sahibkar qərarı aldığı vaxtdan 30 (otuz) gün müddətində xərclərin əvəzini dövlət büdcəsinə köçürür.

2.6. Xərclərin əvəzi bu Qaydaların 2.5-ci bəndində göstərilən müddətdə ödənilmədikdə, yoxlayıcı orqan ödəmənin təmin edilməsi barədə sahibkara yazılı xəbərdarlıq təqdim edir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərir.

2.7. Xəbərdarlığın verildiyi gündən sonrakı 10 (on) gün müddətində sahibkar tərəfindən ödəmə həyata keçirilmədikdə, yoxlayıcı orqan tələbin məcburi icraya yönəldilməsi haqqında qərar qəbul edir.

2.8. Tələbin məcburi icraya yönəldilməsi haqqında yoxlayıcı orqanın qərarının icrası "İcra haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

2.9. Sahibkar xərclərin əvəzinin ödənilməsi və tələbin məcburi icraya yönəldilməsi haqqında yoxlayıcı orqanın qərarlarından inzibati və ~~(və ya)~~ məhkəmə qaydasında şikayət verə bilər.[3]

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 15 avqust 2014-cü il tarixli **284** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 8, maddə 1017**)

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 15 avqust 2014-cü il tarixli **284** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 8, maddə 1017**) ilə 2.2.3-cü yarımbənddə "**çəkilmədiyi**" sözü "**çəkildiyi**" sözü ilə əvəz edilmişdir.

[2] 15 avqust 2014-cü il tarixli **284** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 8, maddə 1017**) ilə 2.3-cü bəndə "imzalanaraq," sözündən sonra "bu Qaydaların 2.1-ci bəndində göstərilən xərclərin çəkilməsi barədə müvafiq sənədlərin surətləri ilə birlikdə" sözləri əlavə edilmişdir.

[3] 15 avqust 2014-cü il tarixli **284** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 8, maddə 1017**) ilə 2.9-cu bənddən "**(və ya)**" sözləri çıxarılmışdır.